Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Prezident demişdi axı, Qarabağı və Zəngəzuru cənnət edəcəyik...

**Qarabağın, Şərqi Zəngəzurun, bir sözlə, azad edilən ərazilərin yenidən qurulması, bərpası, sosial-iqtisadi inkişafının təmin edilməsi, burada sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması istiqamətində çox ciddi işlər görülür, layihələr, proqramlar icra olunur.**

Məlumdur ki, 30 il bu ərazilər işğalda olduğundan burada iqtisadiyyat tamamilə iflic vəziyyətə düşmüşdü, sosial-iqtisadi həyat yoxa çıxarılmışdı, vaxtilə mövcud olan resursların hamısı sıradan çıxarılmışdı. Amma Azərbaycan dövlətinin həyata keçirdisi sosial-iqtisadi siyasət nəticəsində o torpaqlarda həyat, iqtisadiyyat yenidən dirçəldilir.

**"...Biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk..."**

Sentyabrın 20-də başa çatan lokal antiterror tədbirlərindən sonra xalqa müraciətində Azərbaycan Prezidenti İlham Əliyev Qarabağın, Şərqi Zəngəzurun cənnətə çeviriləcəyini bəyan edib: "...Biz müxtəlif sosial proqramlar icra etməyə hazırıq. Biz bütün Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq, görün, nə qədər böyük işlər görürük, cəmi iki il ərzində. O bölgədə bəlkə də 30 il ərzində heç 1 faiz də iş görülməyib - elektrik stansiyaları, körpülər, tunellər, su anbarları, yaşayış binaları, kəndlər, şəhərlər qurulur. Cəmi iki il ərzində. Heç bir yardım almadan, özümüz. İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk, hər gələn insan onu görür. Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu, bizim əlimizdədir. Ona görə bizim təklifimiz budur və bu gün dönüş nöqtəsi idi. Xunta, qansoran zəlilər artıq tamamilə ifşa olundu və təslim oldu. Onlar ağ bayraq qaldırdılar!"

**Qarabağ və Şərqi Zəngəzur regionunda sosial-iqtisadi həyatın təntənəsi...**

Bildirək ki, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. 2023-cü ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün ötən illə müqayisədə 13 faiz daha çox, yəni 3 milyard manat nəzərdə tutulub.

İşğaldan azad edilmiş ərazilərə sosial-iqtisadi həyatın geri qaytarılmasında özəl sahibkarlar əhəmiyyətli rol oynayır. Dövlət həmin ərazilərə yerli və xarici biznes nümayəndələrinin investisiya qoyması üçün əlverişli mühitin yaradılmasını prioritet istiqamətlərdən biri kimi götürüb. Bu məqsədlə 2022-ci il noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiqlənib. Proqramın əsas hədəf göstəricilərindən biri azad olunmuş ərazilərdə iqtisadiyyatın yenidən qurulması üçün yeni investisiyaların cəlb olunması ilə sahibkarlıq mühitinin formalaşdırılmasıdır. Sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək də Dövlət proqramının əsas məqsədlərindəndir.



Qəbul edilən Dövlət Proqramı çərçivəsində işlər davam etdirilir və ölkə Prezidentinin təbrincə desək, Qarabağın və Şərqi Zəngəzurun cənnətə çevrilməsi üçün böyük işlər həyata keçirilir.

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli "Bakı-Xəbər"ə şərhində bildirdi ki, Azərbaycan Prezidenti tamamilə reallığı əks etdirən fikirlər bildirir. A.Nəsirlinin sözlərinə görə, bu gün Qarabağ, Şərqi Zəngəzur, Kəlbəcər, Laçın yenidən qurulur. Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün bütün səylər birləşdirilib.

"Prezident elan etdi ki, biz müxtəlif sosial proqramlar icra etməyə hazırıq. Bu da ondan xəbər verir ki, Azərbaycan dövlətinin artıq bu istiqamətdə real planı var. Hesab edirəm ki, bu amil Qarabağın erməni əsilli əhalisinin reinterqsiyasının güclənməsinə müsbət təsir edəcək. Bilirsiz ki, artıq Xankəndi şəhərinin Azərbaycan enerji sisteminə qoşulması təmin edilib. Bu özü çox müsbət addımdır. Əlbəttə, artıq dialoqlar davam edir və reinteqrasiya prosesindən sonra Xankəndi də, Əsgəran da, Xocalı da, başqa yaşayış məntəqləri də yenidən qurulacaq və Prezidentin elan etdiyi kimi yeni kəndlər, yaşayış məntəqləri qurulacaq, infrastruktur kökündən yenilənəcək. Bir sözlə, uzun illər bataqlqda qalan bu ərazi yenidən canlanacaq. Qarabağda yaşayan erməni əsilli şəxslərin həyatı da tamamilə dəyişəcək".

A.Nəsirli əlavə etdi ki, orada sosial-iqtisadi həyat yenidən canlanacaq, yeni iş yerləri açılacaq, müəssisələr qurulacaq, bir sözlə cənnət Qarabağ, cənnət Zəngəzur dünyanın diqqətini cəlb edəcək. A.Nəsirli bildirdi ki, bu bölgələrin sosial-iqtisadi potensialı çox güclüdür, təbii resurslar, burada həyata keçiriləcək işlər buranın həqiqətən də cənnətə çevrilməsinə imkan verir. Azərbaycan dövlətinin iradəsi olan yerdə torpaqlarımızın çiçəklənməsinin qaçılmaz olduğunu deyən müsahibimiz vurğuladı ki, şəhərlər, kəndlər yenidən qurulduqdan sonra buradkı inkişafı bütün dünya görəcək. "Beynəlxalq aləm görəcək ki, Azərbaycan öz torpaqlarını necə inkişaf etdirir, tikir, qurur, yaradır. Amma işğal dövründə bu ərazilər cəhənnəmə çevrilmişdi. Artıq o günlər arxada qaldı və o ərazilərin qarşıda gözəl gələcəyinin şahidi olacağıq. Bu sahədə iki ildir ki, proses gedir, indən sonra bu daha da genişlənəcək" -deyə müsahibimiz qeyd etdi.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**